

Seyran Səxavət

# "25 il bundan qabaq kişilikdən istefa vermişəm..."

**Seyran Səxavət deyir ki:**

***- İnsan yalnız ölümə yaltaqlana bilmir.***

***- Nə qədər ki, Qarabağ torpağı erməni işğalı altındadı , laaaap aşağıdan laaaap yuxarıya qədər kim özünü kişi hesab edir etsin - mən özümü kişi hesab eləmirəm və 25 il bundan qabaq kişilikdən istefa vermişəm.***

***- Yalan yaltaqlığın lirikasıdır.***

***-Təqsiri olan adamlar günahını zəmanənin boynuna atırlar və nəticədə zəmanə bəşəriyyətin günah ambarına çevrilir - bax, bir gün bu anbar partlayanda dünyanın axırı olacaq.***

***- Baba ilə nəvə ona görə bir-birini çox istəyir ki, ikisi də bir ağılda olur.***

***- İndiki övladlar valideynlərinə bankomat kimi baxırlar.***

***- Mənə elə gəlir ki, insan yalnız ölənə qədər deyil, öləndə də öyrənir - öləndə də ölmək öyrənir.***

***- Dünya Allahın çin olmuş yuxusudur.***

***- Xalqın uğrunda ölməyə dəyməz, çünki xalq həqiqət deyil - həqiqətin yolunda ölmək lazımdır.***

***- Körpə ölümü yaşlı adamların yuxusu boyda bir şeydir.***

***- Cümlə qurmaq dövlət qurmaq qədər çətindir!***

***- Ən asan şey dünyaya gəlməkdir, çünki burda sənin heç bir zəhmətin yoxdur.***

***- "Salam verdim rüşvət deyildir deyə almadılar" (Füzuli) - ancaq rüşvət verdim salam deyildir deyə o saat aldılar...***

***- Qız uşağı sevinəndə Allah da gülümsəyir. Allahın dodaqlarına təbəssüm qonanda o, bəşəriyyətə qarşı daha çox mərhəmətli olur.***

***- Yumruq boyda daş, milyon illər boyu sıxılmış Yer kürəsi boyda torpaqdır.***

***- Mənə elə gəlir ki, Allah bütün dünyanı bizim kəndin üstündən idarə eləyir.***

***- Şuşa ucalığından baxanda Təbriz , Dəmirqapı Dərbənd, Borçalı çökəyi və İrəvan görünürdü - bu gün isə, Şuşanın özünü görə bilmirik.***

***- Yoooox!!! Sənin dediyin o həqiqət doğulmayacaq - Sən də, Mən də, O da yığışıb o həqiqəti abort elətdirməliyik! ("Qızıl teşt" tamaşasından - 1988-ci il).***

***- Aralıdan baxanda Yer kürəsi çürük toxuma oxşayırdı, yaxından baxanda isə oxşamırdı - eləcə çürük idi.***

***- Əgər Abdulla da davadan qayıtmasaydı, tarix kitabında yazacaqdılar ki, Sovet xalqı İkinci Dünya müharibəsində iyirmi milyon bir nəfər adam itirib.***

***- Qızlarının üzü gülməyən məmləkətin gələcəyi ağlar qalar.***

***- Bizim Milli Məclisdəki deputatların 99,9 faizinin yediyi çörəyə heç vaxt and içmərəm, əgər and içsəm bilin ki, yalandan and içirəm.***

***- Dünyanın ən xoşbəxt xalqı, dünyanın ən az yalan danışan xalqıdır.***

***- Xalq birləşəndə güclü olur, yazıçı təklənəndə.***

**P.S. Seyran Səxavət nə deyir eeee?!**
**Deyir dəəəə...**

Ədalət.- 2020.- 15 fevral. S. 7.